# Moskvada ümummilli lider Heydər Əliyevi yad edirlər

Moskvada Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin anım gecəsi keçirilib. Tanınmış siyasətçilər, mədəniyyət xadimləri, ulu öndərin məsləkdaşları və sadəcə, onu tanıyan və onu xatırlayan insanlar Azərbaycanın Rusiyadakı səfirliyində toplaşmışdılar. RF Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, RF Dövlət Dumasının MDB məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Slutski, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya Neft-Qaz Sənayesi İşçiləri İttifaqının prezidenti Gennadi Şmal, Rusiyanın əməkdar rəssamı Nikas Safronov, 1980-2001-ci illərdə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti olmuş Xuan Antonio Samarançın müşaviri Alberto Kintana, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin patofiziologiya kafedrasının müdiri, professor Pyotr Litvitski görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı xoş xatirələrini tədbir iştirakşıları ilə bölüşmüşlər.

Qeyd olunub ki, indi dünyada lider qıtlığıdır. Bu gün dünyada belə qətiyyətli, eyni zamanda müdrik, ağıllı, vəziyyətin hər gün son xəbərlərə baxarkən gördüyümüz həddə çatmasının qarşısını ala biləcək insanların çatışmaması aşkar hiss olunur. Ona görə də Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq çətindir. Çünki insan xatırlanırsa, demək, o, sağdır, Heydər Əliyevin xatirəsi isə dünyada azərbaycanlılar deyilən millət qaldıqca yaşayacaq.

***AZƏRTAC***